2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli, 21 və 22 saylı müraciətlər üzrə

# RƏYİ

Bakı şəhəri 31 dekabr 2019-cu il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Asəf Pənah oğlu, Cavadov Təyyar Cavad oğlu, Mirzəyev Abuzər Miri oğlu, İsmayılov Rafiq Manaf oğlu və digərlərinin 2019-cu il dekabrın 25-də Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərinə və ona əlavə edilmiş 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsinə keçirilmiş seçkilərdə dairənin 8 və 10 saylı seçki məntəqələrində səsvermənin nəticələri haqqında həmin məntəqə seçki komissiyalarının protokollarının təsdiq edilmiş surətini nəzərdən keçirərək **müəyyən etdim**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq daxil olduğundan Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırma prosesində araşdırma müddətinin uzadılması barədə vəsadət verilərək araşdırma müddəti 3 gün uzadılmış, ekspert qrupunun digər üzvünün vəsadəti əsasında bir icraatda birləşdirilərək araşdırılnmışdır.

Araşdırma zamanı Ağdaş bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər tərəfindən təqdim edilmiş 8 və 10 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyalarının səsvermənin nəticələri haqqında protokollarının təsdiq edilmiş surətləri ilə 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsinə keçirilmiş seçkilərdə 4 seçki

məntəqəsi üzrə təqdim etdiyi səsvermənin nəticələri haqqında yekun protokolu və digər sənədlərin yoxlanılması ilə müəyyən edilmişdir ki, seçki günü səslərin hesablanaraq səsvermənin nəticələri haqqında 8 və 10 saylı seçki məntəqələrində məntəqə seçki komissiyaları tərəfindən tərtib edilmiş protokollar Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydaların pozulması ilə müşaiyət edildiyindən həmin seçki məntəqələrində səs vermiş seçicilərin hüquqları pozulmaqla coxsaylı seçicilərin sərbəst iradə ifadələrini muəyyənləşdirməyi qeyri-mümkün etmişdir.

69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzrə 8 və 10 saylı seçki məntəqələrində səslərin hesablanaraq səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokolunun tərtib edilməsi prosesində baş vermiş qanun pozuntuları nəticəsində seçkilərin yekunları müəyyən edilərkən seçicilərin iradəsini müəyyənləşdirmək qeyri-mümkün olduğundan, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 106.10-cu və 240-cı maddələrinə əsasən, həmin məntəqələr üzrə səsvermənin nəticələrinin ləğv edilməsi üçün hüququ əsaslar yaranmışdır.

Eyni zamanda qeyd edilməlidir ki, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi ərazisində 4 seçki məntəqəsi, o cümlədən, Ağdaş kəndində 8 saylı, Soyuqbulaq kəndində 9 saylı, Çünzəli kəndində 10 saylı və Vənlik kəndində 11 saylı seçki məntəqələrindən ikisi (8 və 10 saylı seçki məntəqələri) üzrə seçicilərin iradəsini müəyyənləşdirmək qeyri-mümkün olduğundan səsvermənin nəticələri haqqında protokolların ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilmiş və bunula əlaqədar bələdiyyə üzrə keçirilmiş seçkilərin də etibarsız sayılması üçün hüquqi əsaslar yaranmışdır.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2.1-ci maddəsinə görə bələdiyyə seçkiləri o halda etibarsız sayılır ki, bələdiyyə üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin bələdiyyənin ərazisində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində seçicilərin sayı bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən coxunu təşkil etsin.

69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzrə keçirilmiş seçkilərdə 8 və 10 saylı seçki məntəqlərinin səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının

protokollarının ləğv edilməsi üçün hüquqi əsaslar mövcud olduğundan və qeyd edilən seçki məntəqələri bələdiyyənin ərazisində olan seçki məntəqlərinin ümumi sayının yarısını və həmin seçki məntəqələrində seçicilərin sayı bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən çoxunu təşkil etdiyindən, bələdiyyə üzrə seçkilərin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 106.10-cu, 112-ci, 112-1-ci, 237-ci, 240-cı maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2019-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İsmayılov Asəf Pənah oğlu, Cavadov Təyyar Cavad oğlu, Mirzəyev Abuzər Miri oğlu, İsmayılov Rafiq Manaf oğlu və digərlərinin 25 dekabr 2019-cu il tarixli 21 və 22 saylı müraciətləri təmin edilsin.

2. 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin Ağdaş bələdiyyəsi ərazisində olan 8 və 10 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri ləğv edilsin, Ağdaş bələdiyyəsinə seçkilər etibarsız sayılsın.

3. 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının Ağdaş bələdiyyəsi üzrə səsvermənin nəticələri haqqında protokolu ləğv edilsin.

4. Bu rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov